# Bakının düşməndən azad edilməsi iki qardaş xalq arasında sarsılmaz münasibətləri daha da dərinləşdirdi

***Bakının bolşevik-daşnak işğalından azad edilməsindən 100 il ötür. 1918-ci il sentyabrın 15-də tərkibində Azərbaycan korpusu da olan Qafqaz İslam Ordusu Bakıya daxil olaraq şəhəri düşmən işğalından azad etdi. Bu hadisə Nuru paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun fəaliyyəti olmaqla yanaşı, həm də Azərbaycan xalqının özünün qəhrəmanlıq göstəricisi kimi tarixə düşdü. Ən əsası, Bakının azad edilməsi Azərbaycanın dövlətçilik tarixində çox mühüm hadisə kimi yaddaşlara həkk olundu.***

Xəzər regionunun zümrüdü hesab edilən Bakının erməni-bolşevik işğalından azad edilməsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Ona görə ki, 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi – Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Belə bir vəziyyətdə Azərbaycanın dövlət müstəqilliyi reallaşa bilməzdi. Dünya birliyi ilə yenicə təmaslara başlayan gənc respublikamızın ərazi bütövlüyünü təmin etmək imkanları böyük deyildi. O zaman Bakı işğal altında olduğundan milli hökumətin müvəqqəti olaraq Gəncədə fəaliyyətə başlaması barədə qərar qəbul edilmişdi. Milli hökumətin ixtiyarında cəmi 600 nəfərlik hərbi qüvvənin olması işğalçılara qarşı ciddi tədbirlər görməyə imkan vermirdi. Belə bir şəraitdə Osmanlı Türkiyəsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərdi. Belə ki, Osmanlı Türkiyəsi 1918-ci il iyunun 4-də Batumda imzaladığı müqavilə ilə Azərbaycana yardım etməyi üzərinə götürdü. Osmanlının hərbiyə naziri Ənvər paşa qardaşı Nuru paşanı ordunun komandanı təyin etdi.

Bakı azad edildikdən sonra problemlər çıxmaması və yerli əhalidən əsgərlər cəlb etmək üçün o, Qafqaz İslam Ordusu adlandırıldı. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq, qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin iyul-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi.

Tarixi faktdır ki, ötən əsrin əvvəllərində 1917-ci ilin fevral inqilabından sonra böyük dövlətlərin diqqət mərkəzində olan Bakıya sahib olmaq uğrunda gərgin çarpışma gedirdi. Xüsusilə də bolşeviklər Azərbaycanın paytaxtını işğal etməyə can atırdılar. Səbəb də aydın idi. Bolşevik hökuməti strateji cəhətdən mühüm şəhər olan Həştərxanın müdafiə qabiliyyətini möhkəmləndirmək və eləcə də Xəzərdəki hərbi donanmasını gücləndirmək yolunda bir sıra ciddi addımlar atırdı. Ancaq çar Rusiyasını devirmiş bolşevik diktaturasının rəhbərləri arasında ermənilərin çoxluq təşkil etməsi, sonralar Azərbaycanın türk-müsəlman əhalisi üçün ağır nəticələr vermişdi. Həmin dövrdə Bakıda Daşnaksütyun partiyası və Erməni Milli Şurasına tabe olan yaxşı silahlanmış hərbi dəstələr yerləşmişdi və həmin dəstələrə keçmiş rus ordusundan külli miqdarda silah qalmışdı. Bununla yanaşı, Erməni Milli Şurasının tərxis olunan rus əsgərlərindən pul müqabilində silah aldıqları da məlumdur.

Tarixçilər vurğulayırlar ki, oktyabr inqilabı dövrünədək Bakıda bir neçə min silahlı erməni əsgər və zabiti var idi ki, onlar buraya cəbhənin müxtəlif yerlərindən gəlmişdilər və Zaqafqaziyada təşkil edilmiş erməni korpusunu komplektləşdirmək üçün saxlanmışdılar. 1918-ci il noyabr ayının əvvəllərində ifrat millətçi, daşnak Stepan Şaumyan başda olmaqla bolşeviklər Bakıda hakimiyyət qursalar da, bu, real gücə malik deyildi. Bolşevik maskası taxmış erməni millətçisi Stepan Şaumyan bolşeviklərin hakimiyyətini möhkəmləndirməkdən ötrü türk-müsəlman əhalisinə qarşı soyqırımlarına başlamağa qərar vermişdi. 1918-ci il martın 15-də çıxış edərkən “Bakı Soveti Zaqafqaziya vətəndaş müharibəsinin mərkəzinə və istehkamına çevrilməlidir”, – deyən Şaumyan yazırdı: “Bizim siyasətimiz – vətəndaş müharibəsidir. Kim bu siyasətin əleyhinə gedirsə, həmin adamlar düşmənlərimizdir”.

Göründüyü kimi, bolşevik Rusiyasının siyasi sifarişlərini yerinə yetirən Bakı Kommunasının əsas məqsədlərindən biri Bakı neftini əldə saxlamaq idi. Buna görə də, S.Şaumyan və silahdaşları Azərbaycan ərazilərində kütləvi qırğınlar törətməklə türk-müsəlman əhaliyə olan nifrətini nümayiş etdirmiş, Bakını erməniləşdirməyə çalışmışdılar. Bunun üçün Bakıda soyqırımı həyata keçirməkdən də çəkinməmişdilər.

S.Şaumyan Bakı soyqırımı barədə belə yazırdı: "Bizim ordumuza açılan ilk atəşdən istifadə edərək biz bütün cəbhə boyu hücuma keçdik... Bizim 6 minə yaxın silahlı dəstəmiz vardı. Daşnaksütyunların da bizim tabeliyimizə verilmiş 3-4 minə yaxın milli ordusu vardı. Döyüş soyqırım formasını almışdı, ancaq bundan qaçmaq mümkün deyildi. Biz buna biləərəkdən getdik. Bakını ələ almasaydıq, o Azərbaycanın paytaxtı elan ediləcəkdi".

Ancaq qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına erməni millətçilərinin mənfur niyyətlərinin reallaşması baş tutmadı, Bakı və digər rayonları düşməndən azad olundu. Erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara və özbaşınalığa son qoyuldu. Bununla da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi.





Tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi, bir neçə ay sonra isə parlamentə demokratik qaydalar əsasında seçkilər keçirildi.

Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığını daha da gücləndirdi. Qafqaz İslam Ordusu komandanı Nuru paşa Bakını zəbt etmələri münasibəti ilə bütün diviziyalara göndərdiyi təbrikdə yazırdı: “Bakının ələ keçirilməsi üçün edilən müharibələrdə xidməti olan bütün zabit və sıravilərin hər birinə, göstərdikləri şücaət və fədakarlığa görə təşəkkür edirəm”. Azərbaycanın və Bakının düşmən işğalından qurtuluşu münasibəti ilə hərbiyə naziri və Baş Komandan vəkili Ənvər paşa ilə bir çox dövlət nümayəndələri, 29 yaşlı gənc komandir Nuru paşanın şəxsində türk əsgərini bu uğur münasibəti ilə təbrik etmişdi.

Bundan başqa, Nuru paşa Bakının qurtuluşu münasibəti ilə xalqa müraciətlə dərin məzmunlu bir nitq söylədi. O, nitqində xalqın öz gündəlik işi ilə məşğul olmasını, Azərbaycan hökumətinin ən qısa zamanda ölkədə vəziyyəti nəzarəti altına alacağını və günahkarların cəzalandırılması üçün tədbirlər görəcəyini elan etdi. Nuru paşa dil, din və irq ayrılığına yol verilməyəcəyini, hər kəsin qanunlar qarşısında cavabdeh olacağını, insanların can və mal mühafizəsinin Azərbaycan hökumətinin təminatı altında olduğunu bildirdi. Ənvər paşanın Şərq Orduları Qrupunun komandanı Xəlil paşa ilə yanaşı, Nuru paşaya da göndərdiyi məxsusi məktubunda belə deyilirdi: “Böyük Turan İmperiyasının Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin fəthi xəbərini böyük şadlıqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpürəm, şəhidlərimizin ruhuna fatihə ithaf edirəm”.

İki qardaş ölkə arasında münasibətlərin dərinləşməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu böyük tarixi hadisənin qəhrəmanlarını Azərbaycan xalqı hər zaman böyük ehtiramla yad edir.

Bu gün Azərbaycan-Türkiyə qardaşlıq əlaqələri dərin və qırılmaz bağlarla bir-birinə sarılmışdır. Tarixi sınaqlardan həmişə üzüağ çıxmış bu münasibətlər dayanmadan inkişaf edir. Təsadüfi deyil ki, belə qardaşlıq telləri ilə bağlanan, illərin sınağından çıxan Türkiyə-Azərbaycan dostluğu bu gün dünyada bənzəri olmayan strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Türk dünyası birliyinin əsasını qoymuş Mustafa Kamal Atatürk – Heydər Əliyev ideyalarına sadiqlik Türkiyə-Azərbaycan qardaşlığını və dostluğunu daha da möhkəmləndirir. Sentyabrın 15-də Bakıda möhtəşəm hərbi paradın keçirilməsi, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birlikdə paradı izləmələri iki ölkənin tərəfdaşlığının qardaşlıq prinsipləri əsasında günbəgün daha da gücləndiyini təsdiqləyir.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***